# ŞAİR ÖMRÜ - TANRI ƏMRİ...



Vasif MƏMMƏDOV

Bu günlərdə Moskva şəhərində fəaliyyət göstərən "Şəhriyar" Ədəbi-Mədəni Cəmiyyətinin yaradıcı kollektivi ilə alim, şair Elçin İsgəndərzadənin görüşü təşkil olunmuşdu. Görüş qürbətdə yaşayıb-yaradan yazarlarımızın qəlbində silinməz xatirə izləri qoydu. Bu görüş sənətsevərlərə ən azı yeni nəfəs və yeni Azərbaycan ruhu gətirdi.

Mən bu hisslərlə də şair Elçin İsgəndərzadənin əlimdə rus dilində nəşr edilmiş "Букет харыбюльбюль", "Крылатый этюд", Azərbaycan dilində çapdan çıxan "Sevənlərə" və "Qürbət hücrəsində" adlı şeir kitablarını nəzərdən keçirirəm. Şeirləri mütaliə etdikcə alim, sənətkar Elçin İsgəndərzadənin zəkasının qüdrətinə, onun poetik mühitə gətirdiyi yeni deyimlərin və həssas duyğuların sehrinə düşməyə bilmirsən. Əməl insan şəxsiyyətinin güzgüsüdür deyənlər yanılmayıblar. Elçin müəllim özü sözə dirilik verir, yenilik gətirir, onun düşüncələri və deyimləri oxucuların qəlbini işıqlı duyğularla doldurmaqla yanaşı, onda olduqca inamlı bir ovqat yaradır, qəlbi isidən səmimiyyət gətirir. Elçin müəllim alim olduğu üçün onun sətirlərindəki bədii ifadələr oxucunun daxili dünyasını riqqətə gətirir və həqiqətlə möhkəmləndirir. Cəmiyyət həyatında baş verən həqiqətləri nəzmə çəkdikcə şair özü mənən yaşadığı kimi, onu mütaliə edən və dərkə qapılan oxucunu da dərindən düşündürür və mənən yaşadır.

Elçin İsgəndərzadə həsrət şairidir. Onun uğurlarının mayasında torpaq həsrəti, yurd həsrəti çox böyük rol oynayır. Şair gənc yaşlarında, dünyanı dərk etdiyi bir zamanda, doğulub boya-başa çatdığı, yıxılıb-durduğu, müqəddəs varlığı ilə nəfəs aldığı, neçə-neçə dahilərin vətəni sayılan və hazırda xalqımızın qəlbində Qarabağ boyda yaraya çevrilmiş Şuşa həsrətinin amansız acısını dadmışdır. Şairin ürəyində kök salmış yurd həsrətinin ağrısı, onun qəmli notlarla qələmə aldığı şeirlərində açıq-aydın görünməkdədir:

*Sənsiz dərdimizin ölçüsü yoxdur,*
*Qarabağ qırmızı duman içində.*
*Dərdimizə sarı boylanırıq biz*
*Hər səhər, hər axşam güman içində.*
*Bir şəhid xəyalı qalxır, dikəlir,*
*Qırmızı dumanda al qan içində.*

Şairin Qarabağ torpağının yetirməsi, alim, Xudu Məmmədovun ölməzliyinə həsr etdiyi dərin məzmunlu poeması güclü poetik düşüncələrin nəticəsidir. Aşağıdakı sətirlər həmin düşüncələrin ifadəsidir:

*Yuxuda Xudu Məmmədov*
*Çapıb getdi bu gecə*
*Ağzından od püskürən*
*Yel qanadlı atında.*
*Çapıb getdi, sonsuzluğa qovuşdu,*
*Şükür olsun səsi qaldı*
*Silinməyən izi qaldı*
*Göy qübbəsi altında...*
*İndi sənin qərib ruhun*
*Göy qübbəsi altında*
*Qarabağda dolaşır.*
*İndi sənin qərib ruhun*
*yel qanadlı atında*
*keçilməz yollardan keçir,*
*aşılmaz dağlar aşır...*

Bədii fikirləri və fəlsəfi düşüncələri ilə türk dünyasının taleyini poetik dillə ifadə edən şair, müqəddəs türk ruhunu ucaltmaqla yanaşı, həmin kövrək hisslərini oxucuları ilə belə bölüşür :

*Gecələr səslər gəlir*
*Yovşan qoxulu çöldən,*
*Savaş meydanı kimi*
*Qanlı, qoxulu çöldən...*

* * *

*Yer üzü türkün torpağı,*
*Göy üzü türkün bayrağı...*

Yuxarıda qeyd etdiyimiz misraların müəllifi Elçin İsgəndərzadə hər bir azərbaycanlını harada yaşamasından asılı olmayaraq vətənin müqəddəsliyini dərindən duymaq, ruhən onunla yaşamasını istəyir və onu vətən torpaqlarının ağrılarının və onun bəlalarının sağalmasına səsləyir:

*Diz çöküb önündə dua edək biz...*
*Üç rəngli bayrağa - Ulduza, aya,*
*Yəhərlə atını çapıb gedək biz*
*Xocalıdan keçib gedək Şuşaya.*

Bu misralar həsrət ağrılarından doğan, ürək yanğısının poetik ifadəsidir. Elçin müəllim Qarabağın əsrarəngiz gözəlliyini, qəm-qüssə dumanına bürünmüş, öz doğmalarının könüllərinə həsrət qalan Xarı bülbülü, əsrlərdən bəri süzülüb bu günümüzə qədər gəlib çatmış zəngin muğamlarımızın mahir ifaçılarını, qəhrəmanlıq simvolu saydığımız Şuşa qalasını və bütövlükdə işğal altında inləyən torpaqlarımızı unuda bilmir;

*Xarıbülbül hanı, hanı Qarbağım,*
*Aşıq Qurbaninin tər bənövşəsi?*
*Daş basdım bağrıma, dondu göz yaşım*
*Bayquşlara qalıb Laçın meşəsi.*

İllərlə sinəsinin altında Qarabağın acı taleyini gəzdirən və bu dərdlə həzin-həzin yaşayıb yaradan şair, qəlb yanğısını aşağıdakı misralarda belə qələmə alır:

*Ürəyimdə hələ dərddir gül açan,*
*Novruzgülün mənim kimi bağrı qan.*
*Xarıbülbül, qovuşarıq bəs haçan,*
*Qarabağa bizsiz gəlir bu yaz da...*



Mən şairin yaradıcılığında onu ən çox narahat edən, xalqın ruhu ilə səsləşən Qarabağ mövzusuna toxundum. Ancaq Elçin müəllim təkcə dərd şairi deyil, o həm də gözəllik aşiqi, təbiət vurğunu və tarixi keşmişimizə bağlılığı olan şairdir.

Onun ətraf aləmlərə, səmalardakı varlıqlara və kainat quruculuğuna olan maraq və düşüncələri oxucunu özünə məftun edir. O, öz oxucusunu kainatda Tanrının yaratdığı təkrarı olmayan gözəlliklərə, bakirəlik və rəngarəngliyə cəzb etməklə, onun böyük qüdrəti qarşısında valeh olmağa da cəlb edə bilir:

*Bir sadiq yar yoxdu həmən*
*O bir Allahdan vəfalı.*

Elçin müəllim öz yaradıcılığında Cənabi Həqqin yaratdığı rənglər silsiləsi ilə söz çalarlarının, söz rənglərinin imkan vəhdətini yaratmağa çalışır. O, oxucusuna aşılayır ki, Tanrı yaratdığı kainatın ən Böyük və Təkrarsız Rəssamıdırsa, şair də söz rənglərinin tanrısıdır. Elçin müəllim bu fəlsəfi hisslərini "Ayrılıq ebrüsü", "Naxışlı ebrü", "Qırmızı ebrü", "Qürbət ebrüsü", "Ömür ebrüsü" və "Cənnət ebrüsü" kimi şeirlər silsiləsində bədii çalarla verə bilmişdir:

*Yeddi lalə çəkib rəssam,*
*Bir ebrüdə - yeddi lalə.*
*Lalələrin ləçəyində*
*Şeh qurumayıb hələ.*
*Mən sənin yanağında*
*Şeh damlaları gördüm.*
*Ayrılıq günlərində*
*Sənə bir şeir hördüm.*
*Ayrılıqla doludu*
*Lalələrin gözləri.*
*Yadımdan çıxıb indi*
*O şeirin sözləri.*

Məhəbbət mövzusunda yazılan şeirlər içərisində "Sev məni" rədifli şeiri maraqlı qələm nümunələrindən biridir;

*Yüz il sonra*
*Torpağın iliyini sora-sora*
*Qəbrim üstə bitəcək bənövşənin*
*Boynu bükülməsin deyə -*
*Səni and verirəm gözlərinə,*
*Səni and verirəm yerə, göyə*
*Bu gün sev məni, sev məni...*

Elçin İsgəndərzadə Azərbaycan şeirinin müxtəlif janrlarında poetik nümunələr yarada bilən qələm sahiblərimizdən biridir.

Elçin İsgəndərzadə haqqında, onun əsərləri barədə daha çox fikirlər söyləmək mümkündür. Lakin, oxucular üçün ən gözəl və ən maraqlı olan isə onun kitabları olacaq.